**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 oktyabr tarixli 395 nömrəli Qərarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 1 iyul tarixli 66 nömrəli Qərarı ilə təsdiq edilmiş "Çətin həyat şəraitində hesab edilmənin əsasları üzrə şəxsin (ailənin) çətin həyat şəraitində olmasını təsdiq edən sənədlərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1.8-ci yarımbənddə "I və ya II dərəcə" sözləri "orqanizmin funksiyalarının 61-80 və ya 81-100 faiz pozulmasına görə" sözləri ilə əvəz edilsin;

1.2. 3-cü hissənin adında "Sağlamlıq imkanları məhdud olan uşaqlar" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər" sözləri ilə əvəz edilsin;

1.3. 3.1-ci bənddə "Sağlamlıq imkanları məhdud olan uşağın" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsin" sözləri ilə və "sağlamlıq imkanlarının məhdudluğunu" sözləri "əlilliyini" sözü ilə əvəz edilsin.

2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 19 iyun tarixli 110 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar

Respublikasının dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.4-cü bəndin dördüncü cümləsində "I dərəcə gözdən əlilliyi olan" sözləri "Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

2.2. 3.13-cü bəndin ikinci cümləsində "I dərəcə gözdən əlilliyi olan" sözləri "orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, "25" oktyabr 2022-ci il

№ 205